

Ələmdar MƏMMƏDOV

# Mən bu zamana sığmazam

## Zirvəyə doğru: İlyas - İlahi qüvvə, köməyə gələn

(əvvəli ötən saylarımızda)

### *Vətən və xalq qarşısındakı ən böyük xidməti*

**Görkəmli partiya xadimi Azərbaycan KP MK-nin inzibati orqanlarla iş şöbəsinin müdiri kimi uzun illər Respublika hüquq-mühafizə orqanlarına rəhbərlik etmiş Sabir Hüseynov müsahibələrindən birində İlyas İsmayılov haqqında deyir: "Mərd adamdır, tox adamdır, sınmaz adamdır. Bəlkə də buna görə paxılları, bədxahları çox olub".**

Keçən əsrin 80-ci illərinin axırlarında siyasi hakimiyyətin səriştəsizliyi şəraitində Azərbaycanı Özbəkistana döndərmək istəyən mərkəzin qarşısında duruş gətirən yeganə şəxsə - İlyas İsmayılova qarayaxanlara başqa nə ad vermək olar?!

1983-cü ildə SSRİ məkanında pambıq istehsalının 75-80 faizini verən Özbəkistan SSR-də pambıqçılıq sayəsində göstərmələrin şişirdilməsi (pripiska) barədə Qdlyan və İvanovun başçılığı ilə istintaq-əməliyyat qrupu sonradan "Özbək işi"adlanacaq cinayət işinin istintaqını aparırdı.

Haşiyə: Pripiska sosializm qurulușunun mahiyyətindən irəli gələn hadisədir. Bu cinayətin motivi hüquq ədəbiyyatında "mənsəbpərəstlik", "aldatma yolu ilə qabaqcıllar sırasına çıxma" və s. göstərilir. Ona görə də bu əmələ görə yüngül cəza tətbiq edilməsi nəzərdə tutulurdu. Cinayətin subyekti yalnız hesabat sənədlərində imzası olan vəzifəli səxslər hesab olunurdu (müdir və baş mühasib).

Pripiska - N.S.Xruşşovun hakimiyyəti illərində intişar etmiş və əslində ölkənin iqtisadi əsaslarını sarsıtmış, korrupsiya və rüsvətxorluğa yol açmış, ən dəhşətlisi, çox sayda işçilərin cəlb edilməsinə və bununla da insanların məfkurəsinin pozulmasına səbəb olmuşdu.

Pripiskaya görə cinayət məsuliyyətinin nəzərdə tutulması hansı zərurətdən irəli gəlirdi?

1955-ci ildə SSRİ-nin iqtisadi sistemində ciddi dəyişiklik baş verdi. 1939-cu ildən tətbiq olunan, zəhmətkeş kütlələrinin marağına uyğun olan "İqtisadiyyatın effektiv artım modeli"ndən imtina edildi. Əgər əvvəllər müəssisələrarası hesablaşmalar natura ilə aparılırdısa, indi pul kütləsi ön plana keçdi. Başqa sözlə, vətəndaşların maddi rifah halının yaxşılaşdırılması davamlı olaraq gündəlik tələbat mallarının qiymətinin endirilməsi hesabına edilirdisə, 1955-ci ildən başlayaraq maaşların artırılması ön plana keçdi. Məhz həmin dövrü pripiskanın başlanğıcı hesab etmək olar. Buna baxmayaraq, pripiskanın zərərli nəticələri hələ hiss olunmurdu.

1959-cu ildə növbədənkənar çağırılan partyanın 21-ci qurultayında yaxın gələcəkdə kommunizmin madditexniki bazasının yaradılması ideyası irəli sürülmüşdü (7 illik plan). Sonralar subyektivizm adlanacaq bu dövrdə ardıcıl olaraq ölkənin iqtisadi qüdrətini zəiflədən qərarlar qəbul edilirdi. Belə qərarlardan biri də heyvandarlığa aid idi. Məsələn, kolxozçu ilə müqavilə bağlanırdı ki, şəxsi təsərrüfatında olan bala heyvanları böyüdüb kolxoza versin. Əvəzində kolxoz ona yem və s. verməli idi. Bala heyvanlar artıq kolxozun hesabına keçir, beləliklə, mal-qaranin sayı sürətlə artırdı. RSFSRin Ryazan vilayətində hər doğar inəyə üç baş bala düşürdü. Son nəticədə, vilayət partiya komitəsinin birinci katibi Larionov intihar etməli oldu. Yalnız bu hadisədən sonra mərkəzdə oturan "başbilənlər" hərəkətə keçdilər.

27 oktyabr 1960-cı ildə qəbul edilmiş RSFSR Cinayət Məcəlləsində və 08 dekabr 1960-cı ildə qəbul edilmiş Azərbaycan SSR Cinayət Məcəlləsində "Pripiska" ilə əlaqədar maddə yox idi. Sov. İKP MKnın və SSRİ Nazirlər Sovetinin 19 may 1961-ci il tarixli birgə qərarından sonra SSRİ Ali Soveti Rəyasət Heyətinin 24 may 1961-ci il tarixli fərmanı ilə "Planların yerinə yetirilməsi haqqında hesabatlarda rəqəmləri artıq göstərmək və başqa təhriflər" ə görə cinayət məsuliyyəti müəyyən edilmişdi. Bu fərmandan sonra butun müttəfiq respublikalarda, o cümlədən, Azərbaycan SSR CM-nə eyni adlı 172-1 maddəsi əlavə edildi (dilimizdə kolxoz, sovxoz, komsomol sözləri kimi pripiska sözü də doğmalaşdı).

Pripiskanın bütün SSRİ-də olduğu kimi Azərbaycanda da olmasını heç kim inkar edə bilməz.

1989-cu ilədək davam edən istintaqın gedişində Sov.İKP MK-nın siyasi bürosu üzvlüyünə namizəd, Özbəkistan KP MK-nın 1-ci katibi Ş.Rəşidov ürək çatışmazlığından vəfat etdi (intihar etməsi barədə fikirlər səslənirdi). Onun yerinə seçilmiş İ.B.Usmanxocayev, L.İ.Brejnevin kürəkəni SSRİ DİNnin müavini Y.M.Çurbanov, Özbəkistan KP MKnın katibləri A.Səlimov, E.Aytmuratov, R.Abdullayev, Daşkənt Vilayət Partiya Komitəsinin 1-ci katibi Musaxanov, Fərqanə Vilayət Partiya Komitəsinin 1-ci katibi Ömərov, Buxara Vilayət Partiya Komitəsinin 1-ci katibi A.Kərimov və onu bu vəzifədə əvəz etmiş İ.Cabbarov, Namanqan Vilayət Partiya Komitəsinin 1-ci katibi N.Rəcəbov, Qaraqalpaq Vilayət Partiya Komitəsinin 1-ci katibi K.Kamalov, Surxandərya Vilayət Partiya Komitəsinin 1-ci katibi A.Kərimov, Özbəkistan SSR Nazirlər Sovetinin keçmiş sədri N.Xudayberdiyev, Namanqan Vilayət Aqrar Sənaye Birliyinin sədri A.Adilov, Özbəkistan SSR DİN-nin generalları - Yəhyayev, Norov, Norbutayev, Camalov, Səttarov, Sabirov və başqaları istintaq zamanı həbs olundular və məhkəmənin hökmü ilə uzun müddətli azadlıqdan məhrum edildilər.

İki nəfər Özbəkistan SSR Pambıqtəmizləmə Sənayesi naziri V.Usmanov və Buxara vilayət DİN-nin SƏDM şöbəsinin rəisi A.Müzəffərov ölüm cəzasına məhkum edildilər və hökm icra olundu. İstintaq zamanı həbsə alınan yüksək vəzifəli şəxslərdən K.Erqaşov, Q.Davudov, R.Qaipov intihar etdilər.

Həmin iş üzrə adları sadalanmayan yüzlərlə insan, o cümlədən, rayon miqyaslı partiya, sovet və təsərrüfat rəhbərləri həbsə alındı. Onminlərlə insan "istintaq boyunduruğundan" keçməli oldu.

Özbəkistan müstəqillik əldə etdikdən sonra, 25 dekabr 1991-ci ildə SSRİ-nin tarix səhnəsindən silinməsindən bir gün əvvəl prezident İ.Kərimovun sərəncamı ilə həmin işlər üzrə məhkum olunanların hamısı əfv edildi.

Bu siyahını ona görə yada salıram ki, keçən əsrin 80-ci illərində Respublika prokurorluğunda başlanmış




pambıq işləri ilə əlaqədar İlyas müəllimi günahlandıranlar, əsasən, həmin dövrdə yüksək vəzifə sahibləri olmuş məmurlardır. İstərdim hamı bilsin ki, İlyas müəllim bu cənabları hansı təhlükədən qurtarıb. Görəsən bizdə eyni əməllə məşğul olan beş-on təsərrüfat rəhbərindən başqa hansı yüksək ranqlı məmur həbsə alındı?!.

SSRİ DİN-nin Şəmkirdə apardığı cinayət işi üzrə RPK-nin 1-ci katibi Vəliyev, Azərbaycan SSR Pambıqçılıq Sənayesi Naziri Salmanov, həmçinin onlarala vəzifəli şəxs - RİK-nin sədrinin müavini, Rayon Daxili İşlər Şöbəsi rəisinin müavini, Rayon Maarif Şöbəsinin müdiri, 13 kolxoz sədri, həmin kolxozların baş mühasibləri, baş aqronomları, baş zootexnikləri, bir neçə briqadir həbs olunaraq məhkəməyə verildi. Təkcə RPK-nin 1-ci katibi Vəliyevin mühakimə olunduğu cinayət işində 27 nəfər müttəhim var idi. İş üzrə şahidlər Bakı şəhərində aparılan məhkəmə iclasına vaqonlarla gətirilirdi. Şəmkirdə eyni vaxtda 6-7 məhkəmə heyəti iclas aparırdı. İstintaq əməliyyat qrupunun 120 nəfərlik heyəti rayonda ağalıq edir, yüzlərlə sadə insan incidilirdi. Həmin dövrdə Şəmkirdə təsərrüfat işləri ilə əlaqəsi olmuş insanlar uzun illər səksəkədə yaşadılar...

İş o həddə çatmışdı ki, barəsində axtarış elan olunmuş RMŞ-nin müdirinin tapılmamasında rayon prokuroru Əli Əliyevi günahlandırırdılar. Prokuror bu barədə İlyas müəllimə məruzə edərkən O, hiddətlənmiş və əsəbi halda, - Sən hec nədən çəkinmədən qanuni işini gör, - demişdi. İlyas müəllimin vətənə, xalqa, millətə göstərdiyi saysız-hesabsız xidmətlərdən ən önəmlisi, şübhəsiz ki, bəzi qara minlərlə soydaşımızı əsil repressiyadan qurtardığı pambıq işləridir.

Onun xidmətini tərsinə çevirənlərə professor Əbülhəsən Abbasovun sözləri ilə cavab vermək istəyirəm:

"Naxçıvan" qəzeti İlyas İsmayılovu nəzərdə tutaraq belə yazır: "O, şəxsi maraq və istəkləri naminə çox vaxt mənsub olduğu xalqı zərbə qarşısında qoymuşdur. O, Baş prokuror olduğu dövrdə vəzifədə qalmaq xatirinə rus ağalarının və kosmopolit Ə.Vəzirovun sifarişlərini yerinə yetirərək, Azərbaycan xalqının fədakar əməyini yerə vuraraq neçə-neçə əmək adamını, əliqabarlı zəhmətkeşi cinayətkar adlandıraraq həbsxanalara salmaqdan çəkinməmişdir". Çox böyük səhv edirsiz, cənablar! Birincisi, İlyas İsmayılov heç vaxt sifarişlə işləməyib və sizin kimi "ağalara" qulluq göstərməyib. Qul-ağa psixologiyası onun təbiətinə ziddir, bunu bütün şüurlu fəaliyyəti dövrü öz işi və davranışı ilə sübut edib. İkincisi, o, əliqabarlı insanların qənimi yox, müdafiəçisi olub, çünki özü əliqabarlı adamdır, zəhmətə, haqqa, ədalətə qiymət verən şəxsiyyətdir. Üçüncüsü, qeyd etdiyiniz dövrdə İlyas İsmayılov ayrı-ayrı cinayətkarları, patoloji cəmiyyət düşmənlərini "həbsxanalara salmaqla" səhv etməyib. Onun elə başlıca səhvi onda olub ki, cəmiyyətin lümpenləşməsinə, mafiozlaşmasına baş vurmuş qara qüvvələri kifayət qədər yerində oturtmayıb (bəlkə də, buna Ə.Vəzirov kimi yarasız bir "rəhbərin" ucbatından nail olmayıb). Budur İlyas İsmayılovun əsas günahı və çox güman ki, bunu o özü də etiraf edər, çünki yüksək intellektə və güclü iradəyə malik adamdır. Belə şəxsiyyətlər isə öz səhvlərini etiraf etməyi bacarırlar."

Şəmkirdəki istintaq əməliyyat qrupu Azərbaycanın digər rayonlarına da girmək istəyirdilər. Bu məsələ ilə əlaqədar Respublikanın Əməkdar hüquqşünası İdris Əsgərovun mətbuatda dərc olunmuş, faktlara söykənən fikirləri maraqlıdır: "...SSRİ Daxili İşlər Nazirliyinin istintaq qrupunun Respublikadan qovulması və minlərlə soydaşımızın həbsdən xilası İlyas İsmayılovun şəxsi nüfuzu və yenilməzliyinin nəticəsi idi. Şamxor üzrə Moskva istintaqçıları ilə onun ilk görüşü mənim yanımda oldu. Birdən-birə bir neçə nəfərin həbsinə icazə istəyən müstəntiqlərin vəsatətini o, qətiyyətlə rədd etdi.

Sərt keçən bu danışıqdan belə bir dialoq yadımdadır.

... - Siz bu cinayətkarların həbsinə icazə vermədiniz, biz bu icazəni SSRİ Baş Prokurorundan alarıq!

- Onlar cinayətkar olmadığına görə, Baş prokuror da onların həbsinə icazə verməz!

- Baş prokuror icazə verməzsə, Baş katibə müraciət edərik!

- Baş katib, ümumiyyətlə, həbsə icazə verə bilməz!

- Baş katib ondan da kəsərli göstəriş verə bilər. Siz bu məsələnin siyasi cəhətini nəzərdən qaçırırsınız!

(ardı var)